# “AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

31 dekabr 2016-cı il tarixinə bitən il üzrə
**Maliyyə Hesabatları**

## “AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2016-CI İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİ

Rəhbərlik “Azərbaycan İstilik Elektrik Stansiyası” Məhdud Məsuliyyətli Cəmiyyətinin (“Şirkət”) 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə bitən il üzrə əməliyyatlarının nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitaldakı dəyişiklikləri düzgün əks etdirən maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) müvafiq olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Müvafiq mühasibat uçotu siyasətinin seçilməsi və ardıcıl şəkildə tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Şirkətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-ın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- Şirkətin fasiləsizlik prinisipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Şirkət daxilində sağlam və effektiv daxili nəzarət sisteminin planlaşdırılması, tətbiqi və saxlanılmasına;
- Şirkətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə, maliyyə vəziyyətinin istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Şirkətin maliyyə hesabatlarının MHBS-a uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılmasına;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq yerli mühasibat uçotu qeydlərinin aparılmasına;
- Şirkətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə; və
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Şirkətin 31 dekabr 2016-cı il tarixinə bitən il üzrə maliyyə hesabatlarının buraxılması rəhbərlik tərəfindən 14 aprel 2017-ci il tarixində təsdiqlənmişdir.

## MÜSTƏQİL AUDİTOR RƏYİ

**“Azərbaycan İstilik Elektrik Stansiyası” Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarına:**
**VÖEN 9900017251**

**Rəy**

Biz “Azərbaycan İstilik Elektrik Stansiyası” Məhdud Məsuliyyətli Cəmiyyətinin (“Şirkət”) 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, maliyyə hesabatları Şirkətin 31 dekabr 2014-cü il tarixinə olan maliyyə vəziyyətini və həmin tarixə bitən il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq olaraq bütün əhəmiyyətli hallarda aspektlərdə düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq maliyyə hesabatları standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun olaraq aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

## "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2016-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Əmlak, tikili və avadanlıq | 426,665 | 447,387 |
| Əmlak, tikili və avadanlığa görə avanslar | 3 | 8,160 |
| *Cəmi uzunmüddətli aktivlər* | 426,668 | 455,547 |
| *Qısamüddətli aktivlər* | | |
| Mal-material ehtiyatları | 11,644 | 23,285 |
| Əvəzləşdirilən ƏDV | 5,082 | 1,956 |
| Ticarət və digər debitor borcları | 46,855 | 14,569 |
| Qabaqcadan ödənişlər | 167 | 172 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 134 | 128 |
| *Cəmi qısamüddətli aktivlər* | 63,882 | 40,110 |
| **CƏMİ AKTİVLƏR** | **490,550** | **495,657** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| *Kapital* | | |
| Nizamnamə kapitalı | 5,108 | 5,108 |
| Əlavə ödənilmiş kapital | 56,110 | 56,110 |
| Bölüşdürülməmiş mənfəət | 270,369 | 257,976 |
| *Cəmi kapital* | 331,587 | 319,194 |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Ssuda və borc vəsaitləri | 37,527 | 47,985 |
| Təxirə salınmış vergi öhdəlikləri | 27,068 | 28,360 |
| İstismardan çıxarma üzrə öhdəlik | 14,200 | 13,960 |
| *Cəmi uzunmüddətli öhdəliklər* | 78,795 | 90,305 |
| *Qısamüddətli öhdəliklər* | | |
| Ssuda və borc vəsaitləri | 38,729 | 32,049 |
| Ticarət və digər kreditor borcları | 26,747 | 19,934 |
| Mənfəət vergisi öhdəliyi | - | 6,820 |
| Mənfəət vergisindən başqa digər vergi öhdəlikləri | 14,692 | 27,355 |
| *Cəmi qısamüddətli öhdəliklər* | 80,168 | 86,158 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | 158,963 | 176,463 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **490,550** | **495,657** |

## “AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2016-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ MƏCMU MƏNFƏƏT HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2016-cı il tarixinə bitən il | 31 dekabr 2015-ci il tarixinə bitən il |
|---|---|---|
| Enerji satışı | 185,519 | 239,678 |
| Xərclər | | |
| Yanacaq | (147,671) | (182,904) |
| Köhnəlmə | (28,335) | (28,159) |
| Təmir və texniki xidmət | (4,280) | (4,130) |
| İşçi heyətinin saxlanılması xərcləri | (4,439) | (5,340) |
| Mənfəət vergisindən başqa digər vergilər | (1,927) | (11,519) |
| Xammal və materiallar | (1,943) | (1,514) |
| Digər əməliyyat xərcləri | (2,014) | (2,959) |
| *Əməliyyat (zərəri) / gəliri* | (5,090) | 3,153 |
| Maliyyə xərcləri, xalis | (3,195) | (2,071) |
| Xarici valyuta mübadiləsindən gəlir, xalis | 16 | 227 |
| Kreditor borcun silinməsi | 84 | 175 |
| *Mənfəət vergisindən əvvəl (zərər) / gəlir* | (8,185) | 1,484 |
| Mənfəət vergisi gəliri / (xərci) | 1,235 | (2,352) |
| **CƏMİ İL ÜZRƏ MƏCMU ZƏRƏR** | **(6,950)** | **(868)** |

## "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2016-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2015-ci il tarixinə qalıq** | **5,108** | **56,110** | **258,844** | **320,062** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (868) | (868) |
| **31 dekabr 2015-ci il tarixinə qalıq** | **5,108** | **56,110** | **257,976** | **319,194** |
| Vergi borclarının silinməsi | - | - | 19,343 | **19,343** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (6,950) | (6,950) |
| **31 dekabr 2016-cı il tarixinə qalıq** | **5,108** | **56,110** | **270,369** | **331,587** |

## 31 DEKABR 2016-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2016-cı il tarixinə bitən il | 31 dekabr 2015-ci il tarixinə bitən il |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN PUL AXINLARI:** | | |
| Müştərilərdən əldə edilmiş vəsaitlər | 172,152 | 331,535 |
| İşçilərə və təchizatçılara ödənişlər | (151,614) | (210,302) |
| Mənfəət vergisindən başqa vergi ödənişləri | (13,423) | (97,865) |
| Əməliyyatlardan yaranan pul vəsaitləri | 7,115 | 23,368 |
| Ödənilmiş mənfəət vergisi | (327) | (2,136) |
| Ödənilmiş faiz | - | (2,534) |
| **Əməliyyat fəaliyyətindən əldə olunan xalis pul vəsaitləri** | **6,788** | **18,698** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL AXINLARI:** | | |
| Əmlak, tikili və avadanlıq üçün ödənişlər | (210) | (216) |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | **(210)** | **(216)** |
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN PUL AXINLARI:** | | |
| Borc vəsaitlərinin qaytarılması | (6,588) | (19,448) |
| **Maliyyə fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | **(6,588)** | **(19,448)** |
| **NAĞD PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS AZALMA** | **(10)** | **(966)** |
| **İLİN ƏVVƏLİNDƏ NAĞD PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **128** | **869** |
| Valyuta məzənnələrində dəyişikliklərin xarici valyutada saxlanılan nağd pul və pul vəsaitlərinin ekvivalentlərinə təsiri | 16 | 225 |
| **İLİN SONUNDA PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **134** | **128** |

31 dekabr 2016-cı il tarixinə bitən il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda göstərilən məbləğlərə aşağıdakı nağdsız əməliyyatlar daxil edilmir:

- Mənfəət vergisindən başqa vergilər üzrə 4,146 min AZN (2015-ci ildə: 7,672 min AZN) məbləğində öhdəliklərin nağd pul və pul vəsaitlərinin ekvivalentlərinə aid edilməyən ƏDV depozit hesabından ödənilməsi.